Kredo.-2023.- 12 sentyabr.- S.16.

# DAŞLANAN NƏSİMİ VƏ RASİM BALAYEV



Bəri başdan iki məqamı diqqətə çəkmək istərdim;

Ziyalını inqilabçı kimi görmək istəyənlər kökündən yanılırlar.

İkinci məqamı lap axırda deyərəm...

...Mən bir daha inandım..

Nəsiminin dərisini imkan düşən kimi yenə soyacaqlar.

İndi bildim kimlər Babəkin heykəlinə qarşı durur.

İnsanlığımızda Nəsiminin,

Qürurumuzda Babəkin nə qədər xidməti varsa, bir o qədər də Rasim Balayev kimliyinin həyatımızda dəyəri var...

Rasim Balayevi daşlayanlar düşüncədən küt olanlardır...

Bütün varlığını sənətə vermiş ustaddan siyasətçi düşüncəsi tələb etmək ən azı əbləhlikdir...

Dünən ozünü müxalif düşüncənin vicdanı bilənlərdən biri deyir ki, Dağlıq Qarabağ erməniləri özəl xalqdır onların statusu olmalıdır

Nə əcəb daşdan və dildən pərgar olanlar onu görməzdən keçir.

Prezident deyir ki, status cəhənnəm oldu... özünüz düşünün.

Rasim Balayev deyir ki, ziyalı Ali Baş Komandanın yanında olmalıdır... bəlkə bu sözü demək onun haqqı deyil..

Müharibə yaraları hələ sağalmayan ölkədə ziyalının Prezidentin yanında olmaq qənaəti bəlkə səhvdir., kor mənafeyinə görə erməniyə qələbə arzulayan kütdən nə gözləmək olar...

Təxribatçı sualları ilə sanki Nəsimini, Babəki divara dirəyibmiş kimi xoruzlanan mikrofonçu ilə ancaq kütlər fəxr edə bilər...

Ərdoğana və İlham Əliyevə quyu qazmaq istəyində olanlar, indiki dünya siyasi düzənində sabahımızı, gələcəyimizi, ən azı yaxın günümüzü onlarsız necə təsəvvür edirlər...

Mən bu məsələdə siyasi baxışlarımı izah edəndə mənim üçün onsuz da yarım ölmüş dostum mövqeyimə yaltaqlıq adı verdi... ayağımın altından yer qaçdı... bu qədər küt düşüncəmi olar... ancaq hiss etdim ki, gözlərini qərəz örtmüş insancığazlar üçün müqəddəs heç nə yoxdur... mənim münasibətim haqqı xəyanətkarlardan qorumaqdır...

Şübhəsiz, Rüstəm kişi Qarabağa status istəyənlər üçün deyib; çörək gözünüzə dursun.

Heç kimə dövran əbədi deyil... amma zamanın ayrı ayrı adamlar üçün missiyası var...

Ziyalıya daş atmaq günəşə daş atmaqdır... bir də ki... Nankorların gözündən gələr axı... bəs demirdiniz torpaqları azad edən prezidentə niyə inanmayaq... nə tez unutdunuz...

Kütlərdən fərqli olaraq Rasim Balayev heç nəyi unutmayıb...

Kütlərin varlığında həmişə qorxu olur... ona görə də sabaha həmişə şübhə və qorxu ilə baxırlar...

...kütlər həmdə ruhlardan qorxurlar... amma unudurlar ki, onların inandıqları ruhlar varsa, demək Babəkin də, Nəsiminin də ruhları onları izləyir...

Dini mifoloji düşüncənin hökmünə görə ruhların intiqamı çox sərt olur

...indi gəlin məni daşlayın...

Bəlkə sənətkara atılan daşların birəzi azalar...

Hə... axı ikinci məqam məsələsi vardı; kütlənin sərhədi yoxdur ..

Bunun nə demək olduğunu hər kəs özü bilsin...

*Əli Rza XƏLƏFLİ*
*16.08.2023.*